# Gürcüstanda Azərbaycan mədəniyyət günləri



Mədəniyyət günləri "Tbilisi Kortiat" mehmanxanasında professor Rövşən Mustafayevin "Mirzə Şəfi nəğmələri" kitabının təqdimat mərasimi ilə başlandı.

Tədbiri Azərbaycan Respublikasının Gürcüstandakı səfiri Namiq Əliyev açdı. O, həyat və yaradıcılığı Tbilisi ilə sıx bağlı olmuş Mirzə Şəfinin ömür yolundan danışdı.

Kitabda Azərbaycan və gürcü xalqları mədəniyyətlərinin yaxınlaşmasında mühüm rolu olan M.Ş.Vazehin yaradıcılığının unudulmaz və az məlum olan rus dilindən tərcümələrin toplandığını deyən N.Əliyev bu nəşrin siyasi elmlər doktoru, professor Rövşən Mustafayevin gərgin əməyi nəticəsində ərsəyə gəldiyini bildirdi.

Diplomat hər iki ölkənin mədəniyyət nazirlərinin bu tədbirdə iştirakından məmnunluğunu vurğuladı. O, bu ərazidə tarixi keçmişin bərpası istiqamətində addımlar atılmasını təklif etdi.

Mərasimdə Azərbaycanın Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev, Gürcüstanın Mədəniyyət, Abidələrin Mühafizəsi və İdman naziri Nika Rurua, Gürcüstan Yazıçılar Birliyinin sədri Mağvala Qonaşvili, şair-tərcüməçi İmir Məmmədli və başqaları çıxış edərək mərhum professor R.Mustafayevin "Mirzə Şəfi nəğmələri" kitabının təqdimatı ilə rəsmən açılan Azərbaycan mədəniyyət günlərinin dost gürcü xalqının Azərbaycan ədəbiyyatı, incəsənəti və musiqisi ilə yaxından tanışlığında mühüm rol oynayacağına əmin olduqlarını bildirdilər.

R.Mustafayevin həyat yoldaşı, Azərbaycan Milli Elmlər Akademiyası İnsan Hüquqları İnstitutunun direktoru Aytən Mustafayeva tədbirin təşkilatçılarına və iştirakçılarına minnətdarlığını ifadə etdi.

İyunun 16-da Azərbaycan incəsənət ustaları Z.Paliaşvili adına Tbilisi Dövlət Opera və Balet Teatrında qala-konsert verdilər.

Gürcüstanda Azərbaycan mədəniyyəti günlərinin iştirakçıları iyunun 17-də ulu öndər Heydər Əliyevin Tbilisidəki büstü önünə əklil qoydular, xatirəsini ehtiramla andılar.

Əklilqoyma mərasimində Azərbaycanın Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev, respublikamızın Gürcüstandakı səfiri Namiq Əliyev, Azərbaycan-Gürcüstan parlamentlərarası dostluq qrupunun rəhbəri Qənirə Paşayeva iştirak etdilər.

Gürcüstan Mədəniyyət, Abidələrin Mühafizəsi və İdman Nazirliyində keçirilən görüşdən sonra nazirlər Əbülfəs Qarayev və Nika Rurua birgə brifinq keçirdilər.

Nika Rurua azərbaycanlı həmkarı ilə gələcək fəaliyyət planlarını müzakirə etdiklərini bildiridi. Əbülfəs Qarayev jurnalistlərin "Gürcüstanda qədim Azərbaycan və türk abidələrinin dağılmaq təhlükəsi var. Gürcüstanlı həmkarlarınızla görüşdə bu barədə söhbət aparıldımı?" - sualını cavablandıraraq dedi ki, həm Azərbaycanda, həm də Gürcüstanda abidələrin qorunması məsələsində problemlər vardır. Bu istiqamətdə tədbirlər görülür və nazirliklərin mədəniyyət üzrə komissiyalarının iclası keçiriləcəkdir. İclasda bu qəbildən olan problemlərin həlli yollarına baxılıb birgə fəaliyyət planı işlənib hazırlanacaqdır. Ə.Qarayev bildirdi ki, gürcü həmkarlarımla Tbilisinin Nəbatat Bağında azərbaycanlı ictimai xadimlərin dəfn olunduqları qəbiristanlığın qaydaya salınıb qorunması məsələləri barədə də söhbət etdik və Gürcüstan tərəfi bu işi öhdəsinə götürdü.



Jurnalistlərin Qaxdakı gürcü teatrı ilə bağlı sualını cavablandıran nazir teatrın normal fəaliyyəti üçün müvafiq tədbirlər görüldüyünü dedi.

Sonra hər iki nazir gələcəkdə mədəniyyət xadimlərinin, yazıçı və şairlərin, musiqi kollektivlərinin yaradıcılıq gecələrinin keçirilməsi, qarşılıqlı səfərlərin təşkil olunması, birgə film çəkilişi layihəsinin də planlaşdırıldığını vurğuladılar.

Həmin gün Əbülfəs Qarayev Tbilisidəki M.F.Axundov adına Azərbaycan Mədəniyyət Muzeyini ziyarət etdi, onun fəaliyyəti ilə tanış oldu, muzeyin xatirə kitabına ürək sözlərini yazdı.

Ə.Qarayev Tbilisidəki M.F.Axundov adına 73 nömrəli Azərbaycan məktəbində oldu, şagirdlərin rəsmlərindən ibarət sərgiyə baxdı.

Nazir mədəniyyət günləri çərçivəsində Tbilisidəki "Karvansara" şəkil qalereyasında müasir Azərbaycan incəsənəti sərgisinin açılış mərasimində iştirak etdi. Burada 17 azərbaycanlı fotoqrafın əsərləri nümayiş olundu...

***Həmin gün Azərbaycan incəsənət ustaları Gürcüstan azərbaycanlılarının yığcam yaşadıqları Kvemo Kartli-Borçalı bölgəsinin inzibati mərkəzi Rustavi şəhərində geniş konsert proqramı ilə çıxış etdilər.***

**E.HƏSƏNQIZI**